**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi sistemində fəaliyyət göstərən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların və tədris işləri üzrə direktor müavinlərinin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsinin**

# PROQRAMI

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi sistemində fəaliyyət göstərən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların və tədris işləri üzrə direktor müavinlərinin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsində namizəd məktəbin fəaliyyətinin təkimilləşdirilməsi üzrə öz Proqramını təqdim etməlidir.

Proqramda məktəbin gələcək vəziyyətinin təsviri, sahə üzrə problemlərin həlli yolları, müvafiq sahənin və məktəbin inkişafını təmin edəcək tədbirlər və fəaliyyətlər planı, mövcud resurslardan istifadə etməklə daha yüksək nəticə əldə etmək üçün təkliflər, Proqramın həyata keçirilməsindən gözlənilən nəticələr öz əksini tapmalıdır.

Direktorların və direktor müavinlərinin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsində iştirak edən namizədin vakant vəzifəyə uyğunluğu aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

Təqdim etdiyi Proqramın aktuallığı, səmərəliliyi, sistemliliyi, reallığı, ətraflı və detallı işlənilməsi və tərtibatı;

peşə hazırlığı - namizədin vakant vəzifənin tutulması şərtlərinə uyğun olaraq nəzəri və qanunvericilik biliklərini tətbiqetmə bacarığı, iş təcrübəsi, vəzifənin tutulma şərtlərinə uyğun olaraq informasiya texnologiyaları üzrə bilikləri, rəhbər vəzifələr üçün idarəetmə və təşkilatçılıq, o cümlədən qərar vermə bacarığı;

digər zəruri olan keyfiyyətləri - namizədin emosional sabitliyi, məsuliyyətliliyi, məqsədyönlülüyü, dürüstlüyü, özünütənqid, nüfuzetmə, təhliletmə, ünsiyyətqurma bacarıqları.